Azərbaycan.- 2021.-25 aprel. S. 2.

# Bayden uydurma tarixi təsdiqləmək iddiasına düşüb

## ABŞ lideri erməni faşizminin dəyirmanına su tökür

Gözlənildiyi kimi, ABŞ Prezidenti Co Bayden dünən verdiyi bəyanatda 1915-ci ildə Osmanlı imperiyasının ərazisində baş vermiş hadisələri "erməni soyqırımı" kimi qiymətləndirmişdir. Amerika lideri bildirmişdir ki, "Osmanlı dövründə erməni soyqırımı zamanı ölənlərin hamısını xatırlayırıq". Ağ ev rəhbərinin dediyinə görə, söhbət Türkiyəni günahlandırmaqdan yox, tarixin təsdiqlənməsindən gedir: "Ermənilərin tarixinə hörmət edirik. Bu kədəri görürük. Tarixi təsdiqləyirik. Bunu kimisə günahlandırmaq üçün deyil, bir daha əsla yaşanmaması üçün edirik".

Beləliklə, ABŞ Prezidenti verdiyi bəyanatla tarixi təsdiqləmək iddiasına düşmüş, başqa sözlə, tarixi hadisələrə tərif vermək səlahiyyətini mənimsəmişdir. Bu dövlətin rəhbərinə belə bir səlahiyyəti kimin verdiyi hələ heç kimə məlum deyil. İnsanların kütləvi şəkildə öldürülməsi hadisəsini soyqırımı kimi yalnız beynəlxalq məhkəmə tövsif edə bilər. Belə olan təqdirdə bir dövlətin liderinin beynəlxalq məhkəmənin səlahiyyətini qəsb etmək cəhdi özünü açıq-aşkar büruzə verir.

Aydın məsələdir ki, hər hansı dövlətin, o cümlədən ABŞ-ın tarixi hadisələrə qiymət vermək hüququ yoxdur. Ona görə də Baydenin "erməni soyqırımı" ifadəsi işlətməsi tarixin yenidən yazılması mənasına gələ bilməz.

ABŞ liderinin bəyanatı istər Türkiyədən, istərsə də Azərbaycandan sərt reaksiya ilə qarşılanmışdır. Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bildirmişdir ki, sözlər tarixi dəyişdirə, yaxud yenidən yaza bilməz: "Tariximiz haqqında kimdənsə dərs alan deyilik. Siyasi fürsətçilik sülhə və ədalətə ən böyük xəyanətdir. Tək istinadgahı populizm olan bu bəyanatı tamamilə rədd edirik". Türkiyə Prezidenti administrasiyasının rəsmi nümayəndəsi İbrahim Kalın isə qeyd etmişdir ki, "yeganə gündəmi ölkəmizə qarşı düşmənçilik olan dairələrin böhtanlarını təkrarlayan ABŞ Prezidentinin bəyanatını qətiyyətlə pisləyir və rədd edirik". O, ABŞ Prezidentinə öz tarixinə və bu gününə baxmağı tövsiyə etmişdir.

Azərbaycan Xarici İşlər Nazirliyi də sərt bəyanatla çıxış edərək Baydenin "erməni soyqırımı" hədyanını pisləmişdir. Nazirlik nəzərə çatdırmışdır ki, tarixi saxtalaşdırmaq və onu yenidən yazmaq cəhdi qəbuledilməzdir.

Bəs ABŞ liderinin bəyanatından sonra nə dəyişə bilər? Erməni millətçiləri nəyə nail ola bilərlər? Birmənali şəkildə demək olar ki, erməni tərəfi Ağ evdən "soyqırımı" sözü eşitməklə faktiki olaraq heç nə qazanmayacaq.

Tarixi təsdiqləmək iddiasında olan ABŞ administrasiyasının başçısı, bir tərəfdən, sülh və ədalətdən dəm vurur, digər tərəfdən isə, son 30 il ərzində erməni faşistlərinin Azərbaycan torpaqlarında törətdikləri vandalizm əməllərini, onların yüz minlərlə azərbaycanlını yurd-yuvalarından didərgin salmasını, Xocalı soyqırımını gözardı edir. Baydenin məlum bəyanatı yalnız erməni canilərinin ayaqları altına daş qoya və onları yeni-yeni cinayətlər törətməyə sövq edə, erməni faşistlərinin dəyirmanına su tökə bilər. Eyni zamanda Baydenin mövqeyi onsuz da mürəkkəb olan ABŞ-Türkiyə əlaqələrini daha da pisləşdirəcək.

Heç kimə sirr deyil ki, "soyqırımı" oyunu oynamaqda yeganə məqsəd ilk növbədə Türkiyəni daim təzyiq altında saxlamaqdır. Amma Ankara təzyiqə öyrəncəlidir və təzyiq qarşısında geri çəkilmək fikrində deyil.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***